**«Vergilər Nazirliyi ilə əlaqələri genişləndirmək niyyətindəyik»**

AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor İsa Alıyev:

«Tədris Mərkəzi, ümumilikdə, regionda idarəetmənin təkmilləşdirilməsi sahəsində ixtisaslaşmış mühüm təhsil ocaqlarından biridir. Mərkəzin yüksək iş şəraitinə və təchizata malik olması burada vergi əməkdaşları üçün tədris kurslarının dərin elmi prinsiplər üzərində təşkilinə imkan yaradır. Bizə məlumat verildi ki, Tədris Mərkəzində vergi əməkdaşları üçün iqtisadi mövzularda mühazirələr oxunur. Gələcəkdə İqtisadiyyat İnstitutunun aparıcı elmi işçiləri də həmin mühazirələrdə iştirak edə bilərlər. Tədris Mərkəzinin müəllimləri üçün xüsusi treninqlərin təşkili ilə bağlı nəzəri kursların keçirilməsi də mümkündür. Eyni zamanda, institutda Vergilər Nazirliyinin həyata keçirmək istədiyi layihələrə elmi rəylər verilə bilər. Ümumilikdə, nazirliklə əməkdaşlığı gücləndirmək niyyətindəyik və çox şadıq ki, bununla bağlı təkliflərimiz müsbət qarşılanır».